**Qonşu və dost Gürcüstanın Baş naziri İrakli Kobaxidze son 10 ayda ölkəmizə üç dəfə səfər edib. Baş nazirin budəfəki səfəri Gürcüstanda keçirilən parlament seçkilərindən sonra ilk xarici səfəri idi. Bu da iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunun daha bir təsdiqidir.**



# Gürcüstan bir daha bəyan etdi

## İrakli Kobaxidze: "Azərbaycan bizim üçün təkcə dəyərli dost deyil, həm də etibarlı tərəfdaş və qardaş ölkədir"

Ölkələrimizin ali rəhbərliyi səviyyəsində təşəkkül tapmış siyasi dialoq əlaqələrin bütün istiqamətlərdə, o cümlədən iqtisadi sahədə inkişafına daha böyük təkan verir. Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin yanvarın 17-də mətbuata bəyanatlarında da iqtisadi məsələlərə geniş şəkildə toxunulub. Qeyd edilib ki, Gürcüstanda müsbət sərmayə iqlimi mövcuddur və Azərbaycan investorları böyük həvəslə bu ölkəyə öz sərmayələrini yatırırlar. İndiyədək Azərbaycan Gürcüstan iqtisadiyyatına 3,6 milyard dollar sərmayə qoyub.

Energetika sahəsində Azərbaycan-Gürcüstan əməkdaşlığı həm ölkələrimiz üçün, həm də daha geniş coğrafiya üçün xüsusi əhəmiyyət daşıyır. Belə ki, birgə həyata keçirilən neft-qaz layihələri bu gün bir çox ölkələrin enerji təhlükəsizliyinin əsasını təşkil edir. Bu gün Azərbaycan 12 ölkəyə - Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana, İtaliyaya, Rumıniyaya, Macarıstana, Serbiyaya, Sloveniyaya, Xorvatiyaya, Şimali Makedoniyaya və Slovakiyaya qaz ixrac edir. Başqa sözlə, Gürcüstan tranziti vasitəsilə hazırda Azərbaycandan 11 ölkə təbii qaz alır. Dövlətimizin başçısı bu barədə belə dedi: "İldən-ilə ixrac artır. Keçən il bu, 25 milyard kubmetrə çatmışdır və bunun 10 faizi - ümumi ixracımızın 10 faizi Gürcüstanın payına düşür. Mənə verilən məlumata görə, Gürcüstanın istehlak etdiyi təbii qazın 80 faizdən çoxu Azərbaycan mənşəlidir. Yəni bu, doğrudan da, çox böyük, xüsusi əhəmiyyətə malik olan layihədir və getdikcə bizim qaz ixrac coğrafiyamız genişlənəcək. Bizim yeni qaz yataqlarımız bu il işə düşəcək. Gələn il, ondan sonrakı illər üçün də yeni kəşf edilmiş yataqlar mövcuddur. Ona görə getdikcə təbii qazın ixracı artmalıdır və artacaqdır".

Bununla yanaşı, ölkələrimiz "yaşıl enerji" sahəsində də sıx əməkdaşlığa başlayıblar. Bu da çox önəmli və məsuliyyətli məsələdir. Çünki indi bu enerji böyük maraq doğurur, buna bazarda böyük tələbat var. Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bu saziş çərçivəsində Gürcüstan və Rumıniya arasında min meqavatadək gücə malik 1195 kilometrlik elektrik ötürmə xəttinin çəkilməsi və rəqəmsal birləşdirici kabelin uzadılması planlaşdırılır. Kabel Azərbaycanda istehsal olunan "yaşıl enerji"nin Gürcüstan və Qara dəniz vasitəsilə Rumıniyaya və oradan Avropanın digər hissələrinə nəqli üçün nəzərdə tutulur.

Prezidentimiz bütün digər layihələr kimi, bu layihənin də uğurla başa çatacağına əminliyini bildirib. Bu da təsadüfi deyil. Çünki "yaşıl enerji" layihəsinin həyata keçirilməsi indiyədək Azərbaycanla Gürcüstanın birgə reallaşdırdığı işlərin təcrübəsinə əsaslanır. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycandan Türkiyəyə uzanan 1768 kilometrlik marşrutu Gürcüstandan keçir. Yeri gəlmişkən qeyd edək ki, digər bir kəmər - Qərb İxrac Boru Kəməri (QİBK) isə uzun illərdir Azərbaycan neftini Gürcüstanın Supsa limanına çatdırır.

İki ölkənin enerji əməkdaşlığında Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) də mühüm rolu var. Bu kəmər 2006-cı ildən başlayaraq Azərbaycan qazını Gürcüstana nəql edir. 2007-ci ildən isə CQBK-ya birləşdirilən əlavə borular Bakı-Tbilisi-Ərzurum xəttini yaradaraq qazı Türkiyəyə də ötürür. CQBK genişləndirilərək 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin mühüm bir seqmentinə də çevrilib.

Əlbəttə, əməkdaşlıq enerji layihələri ilə məhdudlaşmır, ticarət, sənaye, nəqliyyat və digər sahələri də əhatə edir. Dövlətimizin başçısı öz bəyanatında bildirib ki, Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə təkbətək söhbət əsnasında bağlantılar və Orta dəhliz layihəsi də müzakirə olunub: "Bizim ölkələrimiz burada da yaxın tərəfdaşlar kimi fəaliyyət göstərirlər. Bizim müvafiq qurumlarımızın koordinasiya şəklindəki fəaliyyəti bu layihəni də əminəm ki, uğurla başa çatdıracaq. Burada, əlbəttə ki, biz bir çox qonşularla təmasda olmalıyıq və bu təmaslar var. Bu da böyük coğrafiyanı əhatə edən layihədir və yenə də Gürcüstanla Azərbaycan burada Avropa ilə Asiya arasındakı körpü rolunu uğurla oynayır. Bilirəm ki, Gürcüstanda nəqliyyat infrastrukturunun genişləndirilməsi layihəsi icra edilir. Azərbaycanda da bu layihələr icra olunur, o cümlədən nəqliyyat infrastrukturunun rəqəmsallaşdırılması layihəsi. Yəni biz bu işləri paralel apararaq, təbii ki, həm ölkələrimiz və xalqlarımız, həm də qonşularımız üçün çox əvəzolunmaz xidmətlər göstəririk".

Məlum olduğu kimi, yanvarın 17-də Bakıda Azərbaycan və Gürcüstan arasında İqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 10-cu - yubiley iclası da keçirildi. Gürcüstanın Baş naziri İrakli Kobaxidze iclasda bir sıra vacib məsələlərin müzakirə olunmasının önəmini qeyd etdi. Bəyanatında münasibətlərin iqtisadi aspektinin çox vacib olduğunu xatırladaraq dedi: "Bu layihələrin strateji və iqtisadi əhəmiyyəti var. Çox vacibdir ki, belə layihələr davamlı olsun və yeni layihələr müəyyən edilsin. Artıq qeyd etdiyim kimi, Azərbaycan Respublikası bizim üçün təkcə dəyərli dost deyil, Azərbaycan bizim üçün etibarlı tərəfdaş və qardaş ölkədir. Bu bağların dərinləşdirilməsi bizim marağımızdadır və biz bu münasibətlərə böyük əhəmiyyət veririk.Cənab Prezident, Siz bağlantı layihələrini qeyd etdiniz. Bu, mühüm bir sahədir və bizim ikitərəfli əlaqələrimizin inkişafı baxımından da bu mövzu vacib əhəmiyyət kəsb edir. Bu coğrafi genişlənmədə ölkələrimiz əhəmiyyətli rol oynaya bilər. Biz Asiyanı Avropa ilə birləşdiririk və bu potensialdan maksimal dərəcədə istifadə etməliyik. Odur ki, bu layihələr bizim birgə fəaliyyətimiz nəticəsində mümkün olmuşdur. Hazırda üzərində işlədiyimiz növbəti layihələr var ki, onlar da bizim ölkələrin mənafeyi naminə bu potensialı genişləndirəcək. Bu tərəfdaşlığımızın irəlilədilməsi üçün əlavə səylər göstərməyə hazırıq".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 19 yanvar ( № 12).- S.3.